**Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

M a d d ə 1 . **Qanunun məqsədi**

Bu Qanun dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün, onların səhhətini və fizioloji vəziyyətini nəzərə alaraq qısaldılmış iş vaxtını müəyyən edir.

M a d d ə 2 . **Qısaldılmış iş vaxtının müddəti**

Dövlət qulluğunda olan *orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə*, hamilə və yaşyarımadək uşağı olan qadınlara və *3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlərə*, habelə uşaqların qəyyumlarına, himayədarlarına həftədə 36 saat iş vaxtı müəyyən edilir.[1]

M a d d ə 3 . **Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün iş vaxtı müddətinin artırılmasının qadağan olunması**

Bu Qanunun 2-ci maddəsində göstərilmiş dövlət qulluqçuları üçün "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə nəzərdə tutulmuş iş vaxtının artırılması qadağan olunur.

M a d d ə 4 . **Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 iyun 2001-ci il
156-IIQ

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**)
2. 29 noyabr 2016-cı il tarixli **440-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 yanvar 2017-ci il, 18 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 17**)
3. 19 may 2020-ci il tarixli **110-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 iyul 2020-ci il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 828**)
4. 22 iyun 2021-ci il tarixli **350-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 896**)

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

[1] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**) ilə 2-ci maddəsində **"əlillərə"** sözündən sonra **", sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə"** sözləri əlavə edilsin.

29 noyabr 2016-cı il tarixli **440-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 yanvar 2017-ci il, 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 17**) ilə 2-ci maddəsində "**yaşyarımadək uşaqlarını qanunvericiliklə müəyyən edilmiş səbəblərdən təkbaşına böyüdən atalara**" sözləri "**3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlərə**" sözləri ilə əvəz edilmişdir.

19 may 2020-ci il tarixli **110-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 iyul 2020-ci il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 828**) ilə 2-ci maddəsində **"II qrup əlillərə,"** sözləri **"II dərəcə əlilliyi olan şəxslərə, o cümlədən"** sözləri ilə, "**şəxslərə**" sözü "**uşaqlara**" sözü ilə əvəz edilmişdir.

22 iyun 2021-ci il tarixli **350-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 896**) ilə 2-ci maddədə "**I və II dərəcə əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara**" sözləri "**orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə**" sözləri ilə əvəz edilmişdir.